# "DƏLİ CEYRAN"

## *Tanımadığımız Tanışlar...*

"Azərbaycan" jurnalının 2026-cı il 2- ci və 3-4-cü saylarında professor Hamlet İsaxanlının "Dəli Ceyran" romanı çapdan çıxmışdır. Romanla bağlı öz təəssüratlarımı bölüşmək istərdim. Əsər elə qələmə alınıb ki, oxucu onu oxuyarkən sanki hadisələrin içində yaşayır, qəhrəmanların yanında olur. Onların keçirdiyi hisslər, yaşadığı duyğular oxucuya da ötürülə bilir. Müəllif duyğuları olduqca saf və səmimi şəkildə çatdırmağı bacarıb. Əsərin cazibəsi də məhz bu sadəlikdə və təbiilikdə gizlənir. Xüsusilə Tahirin Alinaya olan sevgisi o qədər təsirli təsvir edilib ki, əsəri oxuyub bitirdikdən sonra belə onun təsirindən çıxmaq olmur. Etiraf etməliyəm ki, Tahiri və ümumiyyətlə kişi təbiətini dərindən anlayan, sevgisini səbrlə içində daşıya bilən Alinaya həsəd aparmamaq mümkün deyil.




Düşünürəm ki, "Dəli Ceyran" kimi əsərlər gənclər üçün olduqca önəmlidir. Çünki müasir dövrdə sevgi, sədaqət və dostluq kimi gözəl hisslər əvvəlki dövrlərdə olduğu qədər güclü hiss olunmur. Belə əsərlər isə həmin dəyərlərin yenidən formalaşmasına təsir göstərə bilər.

Əsərin başqa bir gözəlliyi də ondadır ki, hər oxucu burada həm də özünü görə, tanıdığı insanları xatırlaya bilər. Müəllifin qəhrəmanların daxili dünyasını bu qədər dərindən duyması xüsusi diqqət çəkir. Məsələn, Baharın rəfiqələri ilə söhbətləri, hissləri o qədər real təsvir olunub ki, sanki müəllif bu hadisələri yaşayan insanlarla birbaşa ünsiyyətdə olub, daha doğrusu, sanki bir tərəfdə dayanıb bütün bu söhbətləri eşidib.

Əsər oxucunu zərrə qədər yormur, əksinə, oxuduqca insan onun sehrinə düşür və bir də baxır ki, son səhifəyə çatıb.

Əsərdə Tahirin iki fərqli qadına qarşı hisslərindən bəhs olunur. İlk baxışda bu, iki sevgi kimi görünsə də, lakin əslində fərqli duyğulardan söhbət getdiyi bilinir. Tahir Bahara heyran olur – onun gözəlliyinə, davranışına, cəsarətinə vurulur. Amma zaman keçdikcə anlayır ki, Bahar onun ruhuna uyğun deyil. Sonradan isə o, öz xarakterinə daha yaxın olan Alinanı seçir və onu qəlbən sevir. Çünki Bahara tanımadan vurulur, Alinanı isə tanıyaraq sevir.

Bahar və Alina tam fərqli xarakterlərdir. Bahar sevgisində tərəddüd edərkən, Alina qətiyyətli və güclü görünür. O, Tahiri gizli və qarşılıqsız sevsə də, sevgisində sabitdir. Tahir Baharı sevdi, lakin Alinanın həm ruhunu, həm də qəlbini sevdiyi üçün ona olan sevgisi daha dərin və mənalı oldu.




Əsər başdan-sona sevgi ilə yoğrulub. Alinanın qazandığı sevgi isə təsadüfi deyil. Çünki Tahir yalnız zahiri gözəlliyə deyil, qadının ağlına, danışığına, dünyagörüşünə və zərifliyinə dəyər verən bir insandır. Belə bir insanın qəlbini qazanmaq isə hər kəsin bacara biləcəyi bir şey deyil. Alina bunu bacardı.

"Dəli Ceyran"ı oxuyarkən sevdiyim iki əsər yadıma düşdü: "Əli və Nino" və "Dəli Kür". "Əli və Nino"da gördüyüm təbiilik, səmimi sevgi duyğuları və əsəri durmadan, bir nəfəsə oxumaq istəyim "Dəli Ceyran"ı oxuyanda da məni öz qoynuna aldı. Hər iki əsərdə insani sevgilər Azərbaycan sevgisi fonunda baş verir. Cəmiyyətin üzləşdiyi ictimai problemlər baxımından da bu əsərlər aktualdır, "Dəli Kür" 19-cu əsr Rusiya dövrü Azərbaycanını, "Əli və Nino" 20-ci əsrin ilk rübündəki milli dirçəliş dövrünü, "Dəli Ceyran" isə bir əsr sonrakı, indi yaşadığımız dövrün, 21-ci əsrin ilk rübünün problemlərinə toxunur. Müxtəlif xarakterli müasir Azərbaycan qadınlarının həyatda üzləşdikləri insani, maddi və mənəvi çətinliklər, nəsillərarası anlaşılmazlıqlar, ədalət və gerçəklik kimi mövzuları müəllif "Dəli Ceyran"da qeyri-adi incə cizgilər və boyalarla təqdim edə bilmişdir.

"Dəli Ceyran" bir sevgi dastanıdır, sevginin doğurduğu xoşbəxt həyat hekayəsidir, Əsərin sonunda vurğulandığı kimi, "Sevgi ilə dolu olmayan insan xoşbəxt ola bilməz. Xoşbəxtliyin əsası sevgidir. Sevgi bu mürəkkəb və sirli dünyanın ən gözəl bəzəyi, ona ahəng və rəng qatan ən ali duyğudur".

**Fəridə Tatardar**
*Xəzər Universiteti*
*Fizika və elektronika*
*departamentinin müdiri*

